Bülleten No: 27 / mart 2015

Elektron Hökumət Portalı

your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

MART 2015

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



SYSTEM CERTIFICATION ISO 9001 SGS

UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# Azərbaycan Respublikası Prezidenti Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında Fərman imzalayıb

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, vətəndaşların sosial təminat sahəsində sürətli, rahat və şəffaf xidmətlərə geniş çıxışının təmin edilməsi, ünvanlı dövlət sosial yardımı üzrə dövlət orqanlarının fəaliyyətinin innovativ texnologiyaların tətbiqi ilə qabaqcıl dünya təcrübəsinə uyğun təşkil edilməsi və bu əsasda aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə qərara alıram:



1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) yaradılsın.

2. VEMTAS-ın fəaliyyətinin təşkil olunması üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi beş ay müddətində:

2.1. vətəndaşlara ünvanlı dövlət sosial yardımın alınması üçün fərdi kommunikasiya vasitələrindən (kompyuterlərdən, mobil telefonlardan və s.), habelə bu məqsədlər üçün xüsusi olaraq quraşdırılmış infoköşklərdən istifadə etməklə elektron formada müraciət etmək imkanını yaratmaq məqsədilə “Elektron hökumət” portalına müvafiq informasiya-proqram resurslarını əlavə etsin;

2.2. ünvanlı dövlət sosial yardımın alınması üçün istər kağız üzərindən, istərsə də elektron formada olunan müraciətlərin “bir pəncərə” prinsipi ilə qəbulunun həyata keçirilməsini və həmin müraciətlər üzrə tələb olunan arayış və məlumatların müvafiq dövlət qurumlarından elektron formada nazirlik tərəfindən əldə olunmasını təmin etmək üçün zəruri tədbirlər görsün;

2.3. ünvanlı dövlət sosial yardımın təyinatı məqsədləri üçün ailələrin maddi-məişət şəraitinin müayinəsinin müvafiq proqram təminatı ilə təchiz edilmiş xüsusi kompyuter avadanlıqları vasitəsilə aparılmasını və nəticələrin real vaxt rejimində VEMTAS-a ötürülməsini təmin etsin;

2.4. ünvanlı dövlət sosial yardımı üçün müraciət etmiş ailələrin maddi-məişət şəraitinin müayinəsini həyata keçirən rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzlərinin işçilərinə xidməti nəqliyyat və ya müvafiq kompensasiya verilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi üç ay müddətində:

3.1. ünvanlı dövlət sosial yardımın alınması ilə bağlı elektron müraciətin edilməsi üçün zəruri texniki imkanlara malik infoköşklərin alınmasını, ölkədə fəaliyyət göstərən bütün poçt şöbələrində quraşdırılmasını və “Elektron hökumət” portalına qoşulmasını, həmçinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə həmin infoköşklərin xüsusi proqramla təchiz olunmasını təmin etsin;

3.2. ünvanlı dövlət sosial yardımı üçün elektron formada müraciət edən şəxsləri ödənişsiz olaraq yalnız bu elektron xidmət növü üçün istifadə oluna bilən elektron imza ilə təmin etsin;

3.3. ünvanlı dövlət sosial yardımı üçün müraciət etmiş şəxslər və onların ailə üzvləri üzrə tələb olunan arayış və məlumatların əldə olunması məqsədilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Elektron hökumət” portalı vasitəsilə müvafiq dövlət qurumlarının informasiya resurslarına çıxışını təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. üç ay müddətində ünvanlı dövlət sosial yardımı üçün müraciət etmiş şəxslər və onların ailə üzvləri üzrə tələb olunan arayış və məlumatlara dair informasiya sistemlərini və ehtiyatlarını müəyyən edib onları “Elektron hökumət” portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının siyahısına əlavə etsin;

4.2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təklifləri əsasında ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi qaydalarını beş ay müddətində yenidən hazırlayıb təsdiq etsin;

4.3. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Dövlət orqanları özlərinin “Elektron hökumət” portalına qoşulan informasiya sistemlərində və ehtiyatlarında bu Fərmanın 4.1-ci bəndinə uyğun ünvanlı dövlət sosial yardımı üçün tələb olunan arayış və məlumatlar üzrə informasiya resurslarının yerləşdirilməsini təmin etsinlər.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 23 fevral 2015-ci il.*

www.e-gov.az

# Ünvanlı sosial yardımların təyinatında avtomatlaşdırılmış sistemə keçid üçün texniki hazırlıq işlərinə başlandı




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 fevral 2015-ci il tarixli Fərmanın icrası məsələləri ilə əlaqədar mətbuat konfransı keçirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov Fərman üzrə mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) yaradılmaqla, bu yardımların təyinatı prosesinin tam avtomatlaşdırılması üçün yaxın beş ay ərzində texniki infrastrukturun hazırlanacağını qeyd etdi. Dövlət başçısının son bir ildə əmək və əhalinin sosial müdafiəsi sahəsi ilə əlaqədar 10-dan artıq fərman və sərəncam imzaladığını vurğulayan nazir bu sənədlərin sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının əhəmiyyətli şəkildə artırılmasını təmin etməklə bərabər, bu sahədə mütərəqqi islahatlara şərait yaratdığını da diqqətə çatdırdı. Nazir cənab Prezidentin 23 fevral 2015-ci il tarixli fərmanının milli sosial təminat sisteminin innovativ texnologiyaların tətbiqi əsasında müasir dünya təcrübəsinə uyğun şəkildə təkmilləşdirilməsinə, vətəndaşların sosial təminat növləri, o cümlədən ünvanlı dövlət sosial yardımı üzrə sürətli, rahat və şəffaf xidmətlərə geniş çıxışının təmin olunmasına xidmət etdiyini bildirdi. Tədbirdə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin məsul şəxsləri də iştirak ediblər.

E.Vəlizadə son vaxtlarda ƏƏSMN tərəfindən elektron xidmətlərin genişləndirilməsi üçün görülən və bununla da respublikamızda "Elektron hökumət"in inkişafına xidmət edən uğurlu işləri yüksək dəyərləndirib, ünvanlı sosial yardımların təyinatı prosesinin avtomatlaşdırılmasının ölkəmizdə "Elektron hökumət"in daha geniş əhatə dairəsinə malik olması, innovativ texnologiyaların genişlənməsi istiqamətində mühüm addımlardan biri olduğunu bildirib. O, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 23 fevral 2015-ci il tarixli fərmanında müəyyən olunan tapşırıqların uğurla icra olunması üçün Rabitə və Yüksək Texnologiyaları Nazirliyi tərəfindən müvafiq işlərin aparılacağını, mövcud İKT potensialının ölkəmiz üçün dəyərli olan bu yeni sistemin tətbiqinə lazımi səviyyədə imkan yaratdığını nəzərə çatdırıb.

Konfrans KİV nümayəndələrinin suallarının cavablandırılması ilə davam edib.

# Elektron Hökumət Təlim-Tədris Mərkəzinin açılış mərasimi keçirilib

Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA) və Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) "Azərbaycanda Elektron hökumət Təlim-Tədris Mərkəzinin Yaradılması" layihəsinin uğurla tamamlanmasına həsr olunmuş birgə açılış mərasimi keçirib. Rəsmi açılış mərasimindən öncə qonaqlar layihənin sinif otaqları, server otağı, studiyası və s. daxil olmaqla təlim mərkəzi ilə tanış olublar. Koreyanın Azərbaycandakı səfiri Cənab Choi Suk Inn layihənin uğurla tamamlanması barədə öz məmnuniyyətini bildirərək, İKT sahəsinin Azərbaycan iqtisadiyyatının yeni inkişaf etməkdə olan mühərriki kimi çox böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb və Koreya-Azərbaycan əlaqələrinin xüsusilə də informasiya texnologiyaları və elektron hökumət sahələrinin daha da inkişaf etdirilməsinə ümid bəslədiyini bildirib. O deyib ki, bu layihə Koreya hökumətinin təcrübəsinin və nou-hausunun Azərbaycanla bölüşülməsi üçün təşəbbüslərinin bir hissəsidir.

Öz növbəsində Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasov layihə haqqında məlumat verərək bildirib ki, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Strategiyasına əsasən Azərbaycan hökuməti qeyri-neft sektorunun inkişafını reallaşdırır. BMT-nin Elektron Hökumət üzrə sorğusuna əsasən Koreyanın ən yüksək pillələrdə yer aldığını deyən nazir İKT və elektron hökumət sahəsində Koreya təcrübəsinin öyrənilməsinin vacibliyini vurğulayıb. O, Koreya Respublikasının Azərbaycandakı səfiri və KOİCA nümayəndəliyinə Azərbaycandakı fəaliyyətləri ilə bağlı minnətdarlığını bildirib.

Layihənin məqsədi mərkəzi və regional e-hökumət təlim mərkəzinin qurulması, informasiya texnologiyaları avadanlıqlarının təchiz edilməsi, azərbaycanlı dövlət qulluqçularının İKT potensialının artırılması, Koreya texnologiyasının nou-hausu və inkişaf təcrübəsinin bölüşülməsi ilə İKT və e-hökumət potensialının təşviq olunmasından ibarətdir.

Layihə çərçivəsində KOİCA Bakı, Gəncə, Naxçıvan, Sumqayıt, Mingəçevir, Bərdə, Lənkəran, Qazax, Zaqatala, İmişli, Qəbələ, Göyçay, Şirvan, Şamaxı, Quba, Şəki də daxil olmaqla Azərbaycanın 16 regionunda təlim mərkəzi yaradıb. Koreya tərəfi təlim mərkəzlərində portal, e-təhsil, distant mühazirə, və s daxil olmaqla təhsil informasiya sistemini yaradıb və mərkəzləri İKT avadanlıqları ilə təchiz edib. Dövlət qulluqçuları bu cür təşkil olunan təlimlərdə iştirak edərək distant təlim xidmətlərindən yararlana biləcəklər. Mərkəzlər ictimai idarəetmə və digər sahələrdə elektron hökumət fikirlərinin tətbiqi, informasiya cəmiyyətinin inkişafının təmini kimi xidmətlər göstərəcək və ümumilikdə e-təhsil səviyyəsinin yüksəldilməsinə töhfə verəcəkdir, həmçinin kağızsız onlayn idarəetmə mühiti və müxtəlif növ təlim proqramları təşkil etməklə dövlət qulluqçularının məkan və zamandan asılı olmayaraq, təlim alaraq elektron xidmətlərin səviyyəsini artıracaq.

# "Elektron hökumət" bülleteninin fevral sayının təqdimat mərasimi keçirilmişdir




***10 fevral tarixdə "Elektron hökumət" portalının operatoru RYTN-nin Məlumat Hesablama Mərkəzi tərəfindən "Elektron Hökumət" bülleteninin fevral sayının təqdimatı üzrə brifinq keçirildi. Tədbirdə media nümayəndələri və portalda aktiv fəaliyyətləri ilə seçilən bəzi qurumların nümayəndələri iştirak etdilər. Brifinqin keçirilməsində məqsəd təqdim olunan yeniliklər barədə informasiyanın kütləviləşməsi, həmçinin, görülən işlərin mətbuata birbaşa elan olunmasından ibarətdir.***

Tədbirin təşkilatçısı "Elektron hökumət" quruculuğu sahəsində son yeniliklər barədə qısa məlumat verərək, hər ay keçiriləcək brifingin məqsədini açıqladı. Aylıq "Elektron hökumət" bülletenlərində İKT sahəsinə aid yerli və beynəlxalq xəbərlərin, həmçinin, "Elektron hökumət" quruculuğu üzrə təcrübələrin nəşr edildiyini bildirdi. Məruzəçi MHM tərəfindən elan olunmuş “Start up Azərbaycan 2015” layihəsi çərçivəsində “Bax, istifadə et və yarat” adlı müsabiqə, açıq hökumət məlumatları barədə məlumat verdi. O, media nümayəndələrini daha aktiv olmağa, sual, rəy və təkliflərini daha aktiv şəkildə bildirməyə səslədi. Bildirildi ki, daxil olan bütün fikirlər, təkliflər operator tərəfindən öyrənilir və dəyərləndirilir.

Daha sonra söz Təhsil Nazirliyinin nümayəndəsinə verildi. TN Statistika və proqnozlaşdırma şöbəsinin müdiri İsmayıl Sadıqov 2012-ci buraxılış ilində ali təhsil ixtisasları üzrə 33 min 891 ədəd, orta ixtisas üzrə isə 15 min 217 ədəd, 2013-cü ildə isə ali ixtisas üzrə 35 min 108 ədəd, orta ixtisas üzrə 11 min 753 ədəd diplom haqda məlumatların elektron hökumət portalına yerləşdirildiyini bildirdi. Hazırda ötən ilin buraxılış diplomlarının elektronlaşdırılması istiqamətində işlər aparıldığını, əvvəlki illərdə verilmiş diplomlar da daxil olmaqla bütün diplomların vahid elektron bazasının hazırlandığını vurğuladı. Təhsil Nazirliyi tərəfindən elektron formada diplomların məlumat bazası və diplomların mərkəzləşdirilmiş yoxlama sisteminin hazırlanması üzrə işlərin davam etdirildiyi, bu sistem vasitəsilə diplomların saxtalaşdırılmasının qarşısını tamamilə alınacağı bildirildi.

ƏƏSMN-nin Əmək siyasəti şöbəsinin müdiri Aydın Hüseynov öz çıxışında "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi" elektron xidmətinin üstünlüklərini, sosial əhəmiyyətini qeyd etdi və qısa müddət ərzində 2 milyondan çox vətəndaşın əmək müqaviləsi barədə məlumatların elektron informasiya sisteminə daxil edildiyini bildirdi. O, 2015-ci il ərzində ünvanlı sosial yardımların və tibbi ekspertizadan keçirilmənin tam olaraq avtomatlaşdırılması istiqamətində işlər aparıldığını qeyd etdi.

Elektron ipoteka sistemi layihəsinin rəhbəri Elçin Qəzənfərov yeni yaradılmış portalın üstünlüklərindən bəhs etdi və qeyd etdi ki, elektron sənədləşmə bu sahəyə şəffaflıq gətirməklə yanaşı, vətəndaşların narazılıq hallarının qarşısını da almış olacaq. O, qısa müddət ərzində çox sayda e-müraciətlərin daxil olduğunu bildirdi və layihə üzrə planlaşdırılan işlər barədə məlumat verdi.

"Bank of Baku"-nun nümayəndəsi "Elektron hökumət" portalı üzərindən təqdim olunan elektron arayışların sosial mahiyyətindən və istifadə aktuallığından söz açdı. 2014-cü ilin sentyabr-dekabr və 2015-ci ilin yanvar ayları ərzində 26148 sayda elektron arayışların banka təqdim edildiyini iştirakçıların nəzərə çatdırdı.

Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz öz çıxışında mətbuat nümayəndələrini ölkədə baş verən elektronlaşma prosesi ilə daha yaxından maraqlanmağa, nöqsanlar və çatışmazlıqlar üzrə araşdırmalar apararaq daha tələbkar olmağa səslədi.

Tədbir iştirakçıları, əvvəlki illərdə verilmiş diplomlar haqda məlumatların informasiya sistemində tam əks olunma imkanları, Elektron İpoteka portalının Elektron Hökumət portalına inteqrasiya və əməkdaşlıq imkanları, regionlarda əlillərin mənzil növbəsinə təmin olunması məsələsində ƏƏSMN-nin rolu, və s. kimi suallar ətrafında müzakirələri davam etdirdilər.

Tədbir mətbuat nümayəndələrinin sualları üzrə müzakirələrlə yekunlaşdı.

Qeyd edək ki, fevral ayından etibarən, hər ayın ilk on günlüyü "Elektron hökumət" bülleteni üzrə mütəmadi brifing keçiriləcək.

www.e-gov.az

# Elektron Hökumət Portalı "Lokal İnternet mübadiləsi Şəbəkəsi" yaradır

**Yarandığı ilk vaxtlarda internet təkcə insanların gündəlik həyatında, əmək fəaliyyətində, eləcə də mədəni-məişət sahəsində aktual və faydalı informasiya əldə etmək vasitəsi idisə, zamanın tələbinə uyğun olaraq müasir dövrdə mühüm sosial xidmət məkanına çevrilmişdir.**

XXI əsrin ilk onilliyində sürətlə inkişaf edən və yayılan informasiya və kommunikasiya texnologiyaları, bununla bağlı yeni vüsət almış elektronlaşma prosesləri ölkələrin sosial-iqtisadi həyatına ciddi şəkildə təsir etdi. Ənənəvi idarəçilik metodları günün və cəmiyyətin tələblərini ödəməməklə bütün ölkələri innovativ modell axtarışına sövq etdi. İnformasiya və kommunikasiya texnologiyalarının inkişafı və innovativ idarəçilik modullarının tədqiqi yeni idarəetmə mərhələsini formalaşdırdı. Yeni mərhələ bürokratik ənənəvi idarəçilik modullarını şəffaf innovativ çözümlə - "Elektron hökumət" virtual idarəçilik modulu ilə əvəzlədi.

Bu illərdə ölkəmizdə aparılan genişmiqyaslı islahatlar cəmiyyətimizin hərtərəfli sosial-iqtisadi inkişaf pilləsinə yüksəlməsinə şərait yaratdı. Ölkədə yeni texnologiyaların tətbiqi üzrə mühüm addımlar atıldı, dövlət idarəçiliyinin müasir meyarlara uyğun yenidən qurulmasına başlanıldı. Azərbaycanda demokratik cəmiyyətin, şəffaf ictimai münasibətlərin formalaşdırılması məqsədilə elektron idarəetmə sisteminin tətbiq olunması ictimai tərəqqinin zəruri əsası kimi dəyərləndirilərək dövlət siyasətinin başlıca istiqamətinə çevrildi.

Əsrin əvvəlində ölkəmizdə internetdən istifadənin həcmini təhlil etsək görərik ki, şəbəkədən sadəcə məlumat əldə etmək və e-poçt mübadiləsi üçün istifadə, AZ domeynin zəif inkişafı, elektron xidmətlərin və e-ticarətin bütünlükdə olmaması, gərəkli yerli kontentin minimum səviyyədə olması lokal trafik həcmini artırmağa imkan vermirdi. İnternet istifadəçiləri əsasən xarici resurslardan yararlandıqlarından dəyəri baha olan çıxış beynəlxalq kanalı giriş və lokal kanala nisbətən dəfələrlə çox yüklənmiş vəziyyətdə olurdu.

Son zamanlar isə vəziyyət kökündən dəyişməyə




başlamışdır, internetdən istifadə daha geniş sahələrə, sosial xidmətlərə tətbiq olunur. "Elektron hökumət" portalının yaranması və bu portal üzərindən dövlət qurumlarının 400-dən artıq elektron xidməti vətəndaşlara təklif etməsi və bu xidmətlərin sayının gündən-günə artması, "e-ödəniş", "e-ticarət", "e-satınalma" portallarının yaradılması milli domenin inkişafına güclü təkan vermiş və nəticədə ölkəmizdə internet trafikinin həcmi dəfələrlə artmışdır. Bu trafikin böyük bir hissəsini lokal trafik təşkil edir. Daxilə hesablanmış trafikin həcminin xeyli artması qlobal kanalı məşğul edir, eyni zamanda, "E-hökumət" portalına qoşulmada müəyyən problemlər yaradır.

Qlobal internet şəbəkəsindən maksimum səmərəli istifadəni tənzimləmək, bununla internet provayderlərin beynəlxalq kanallarının 35-40% -ə qədər əlavə yüklənməsinin qarşısını almaq, yerli internet resurslardan istifadə zamanı sürəti tənzimləyərək gecikmələri minimuma endirmək, eləcə də daxili internet resurslarının təhlükəsizliyini nəzərə alaraq portalın operatoru Azdatakom şəbəkəsinin texniki resurslarını hazırda ölkəmizdə fəaliyyət göstərən 30-dan çox internet provayderə təqdim edərək daxili internet şəbəkəsi yaratmağı təklif etmişdir. İlk vaxtlar internet provayderləri arasında 1 Gb saniyə sürətli kanalın yaradılması nəzərdə tutulur. Trafikin həcmi artdıqca kanalın sürətinin artacağı da istisna deyil.

# Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının informasiya sistemləri üzrə aparılmış monitorinqin nəticələri müzakirə edildi

**Fevralın 18-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında RYTN MHM-nin məsul şəxsləri ilə görüş keçirilib.**

Görüşdə TQDK-nın aparat rəhbəri Nərminə Bayramova, İnformasiyalaşdırma və texnoloji təminat şöbəsinin müdiri Çingiz Xəlilov, Məlumat bazalarının aparılması və elektron arxivlə iş sektorunun müdiri Sahib Mərdanov, RYTN MHM-nin direktoru Nail Mərdanov, MHM DİFRMŞ-nin müdiri İlqar Abdullayev və hüquq məsləhətçisi Aydın Əliyev iştirak edib.

Görüşdə Məlumat Hesablama Mərkəzi tərəfindən TQDK-nın informasiya sistemləri üzərində aparılmış monitorinqin nəticələri geniş müzakirə olunub. Görüşdə həmçinin TQDK tərəfindən idarə olunan «Tələbə-Məzun» Dövlət Elektron Məlumat Sisteminin məlumat bazasından vətəndaşlara Elektron hökumət portalı vasitəsilə arayışların verilməsi və digər ümumi layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# Yeni nəsil şəxsiyyət vəsiqələrinə elektron imza sertifikatlarının daxil edilməsi layihəsi üzərində işlər davam etdirilir



Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi sahəsində aparılan işlərin sürətləndirilməsi və ölkədə elektron xidmətlərdən istifadənin daha da genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 noyabr 2014-cü il tarixli sərəncamından irəli gələn vəzifələr - yeni sertifikat xidmətləri mərkəzinin və onun ehtiyat mərkəzinin yaradılması, şəxsiyyət vəsiqələrinin fərdiləşdirilməsi zamanı vəsiqələrin elektron daşıyıcısına daxil edilməsi üçün İAMAS vasitəsilə verilən sertifikat sorğuları əsasında vəsiqə sahibinin gücləndirilmiş elektron imzası ilə əlaqədar sertifikatların şəxsiyyət vəsiqələrinin fərdiləşdirilməsi mərkəzlərinə real vaxt rejimində ötürülməsi və şəxsiyyət vəsiqəsi sahibinin gücləndirilmiş elektron imzasından istifadə ilə əlaqədar vətəndaşlardan daxil olan sualların operativ cavablandırılması məqsədi ilə telefon məlumat xidmətinin yaradılması və fəaliyyətininin təmin edilməsi cari il üçün RYTN MHM-nin qarşısında duran ən vacib məsələlərdəndir.

Bu istiqamətdə MHM-in Milli Sertifikat Xidməti Mərkəzinin mütəxəssisləri tərəfindən layihə çərçivəsində görüləcək işlərin tədbirlər planı hazırlanmış, yeni nəsil şəxsiyyət vəsiqəsinə elektron imza sertifikatlarının daxil edilməsi ilə əlaqədar keçiriləcək tender üçün texniki şərtlər sənədinin ilkin versiyası hazırlanaraq müzakirəyə çıxarılmış, elektron imza sertifikatlarının şəxsiyyət vəsiqəsinin çipinə daxil edilməsi prosesinin icra senarisi hazırlamış və bu senarisinin reallaşdırılması məqsədilə sınaq işlərinin aparılması üçün laboratoriya mühiti yaradılmışdır. Bu laboratoriyada elektron imza sertifikatlarının çipə daxil edilməsi üçün yazılan proqram təminatınının sınaq işləri keçirilir. Eyni zamanda, Azərbaycan Respublikasında yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 28 noyabr tarixli 893 nömrəli sərəncamın 7.1-ci bəndi ilə əlaqədar qanunvericilik aktlarına dəyişikliklər edilməsi barədə təkliflər hazırlanaraq Ədliyyə Nazirliyinə təqdim edilmişdir.

Hal-hazırda layihə çərçivəsində mütəxəssislərin yeni nəsil şəxsiyyət vəsiqəsi layihəsini icra edən və yerli inteqrator şirkətlərin mütəxəssisləri ilə qarşılıqlı işlər birgə iş planı əsasında davam etdirilir. Belə ki, şəxsiyyət vəsiqələrinə daxil ediləcək sertifikatlar üçün vacib olan sertifikat sorğusunun MSXM-in sınaq mühitində yaradılması təmin edilərək həmin sertifikatların Milli Sertifikat Xidmətləri Mərkəzində qurulacaq infrastruktura uyğunlaşdırılması üçün sertifikat profili müəyyənləşdirilir. Yeni qurulacaq mərkəzdə tətbiq ediləcək alqoritm seçimi üzərində araşdırmalar nüfuzlu beynəlxalq strukturların apardıqları sertifikatlaşdırma sınaqları nəzərə alınmaqla davam etdirilir.

# Vətəndaş haqqında bütün məlumatları bir nöqtədən əldə etmək mümkün olacaq- İnformasiya sistemlərinin və ehtiyatlarının FİN-ə uyğunlaşdırılmasının əhəmiyyəti




Məlum olduğu kimi hazırda bir sıra dövlət qurumlarında vətəndaşlarla bağlı müxtəlif məlumat bazaları formalaşıb. Vətəndaşlar dövlət qurumlarına müraciət etdikdə bu məlumat sistemlərində vətəndaş haqqında olan məlumatlardan istifadə edilir. Amma bu məlumat sistemlərindəki məlumatlar bəzən tam və dürüst olmur, müxtəlif dövlət orqanlarının məlumat sistemlərindəki informasiyalarda fərqlər olur, vətəndaşlar yenidən müxtəlif məlumatları təqdim etməli olur, məlumat bazaları arasında təkrarçılığa yol verilir.

Vətəndaş haqqında məlumatları birmənalı olaraq müəyyən etmək üçün ölkə qanunvericiliyində fərdi identifikasiya nömrəsinin tətbiqi nəzərdə tutulub.

Müxtəlif dövlət qurumlarının informasiya bazalarındakı məlumatların vahid bir sisteminin yaradılması məqsədi ilə Prezident "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə» 2013 cü il 5 fevral tarixli 813 nömrəli fərman imzalayıb. Bu fərmanda bütün mərkəzi icra hakimiyyəti orqanlarına sərəncamlarında olan informasiya sistemlərində və ehtiyatlarında fərdi identifikasiya nömrəsinin tətbiq edilməsi tapşırılıb.

Bülletenimiz bu sahədə mövcud vəziyyətə və görülmüş işlərə, mövcud çətinliklərə nəzər salmaq üçün Elektron Hökumət portalının operatoru ilə müsahibəni təqdim edir:

www.e-gov.az

**Sual:** ***Öncə istərdik ki, fərdi identifikasiya nömrəsi anlayışına aydınlıq gətirəsiniz. FİN nədir və hansı qaydada, kim tərəfindən verilir?***

**Operator:** Fərdi identifikasiya nömrəsi - FİN bir hüquqi termin olaraq 2006-cı ildən başlayaraq Azərbaycan qanunvericiliyində işlənməyə başlayıb. Əhalinin Dövlət Reyestri haqqında qanunda FİN Dövlət Reyestrinə barəsində məlumat daxil edilən şəxsə müəyyən edilmiş qaydada verilən və şəxs barəsində müvafiq məlumatları birmənalı müəyyən etməyə imkan verən vahid təkrarolunmaz koddur. Göründüyü kimi, ilkin təyinatında FİN şəxsin identikləşməsi üçün nəzərdə tutulub. Məlumdur ki, fərdi məlumatlar haqqında Azərbaycan Respublikasının Qanunu 2010-cu ildə qəbul olunub və qanunda FİN haqqında aşağıdakı tərif verilib:

FİN – fərdi identifikasiya nömrəsi - fərdi məlumatların informasiya sistemlərinə barəsində fərdi məlumat daxil edilən şəxsə müəyyən edilmiş qaydada verilən və şəxs barəsində müvafiq məlumatları birmənalı müəyyən etməyə imkan verən (yeddi simvollu hərf və rəqəm kombinasiyasından ibarət olan) vahid təkrarolunmaz (unikal) koddur.

Milli informasiya məkanının fərdi məlumatlar üzrə bölümündə paylanmış ayrı-ayrı informasiya sistemlərində eyni subyekt barədə məlumatların uzlaşdırılmasını, bu sahədə pərakəndəliyin və təkrarlığın qarşısının alınmasını təmin etmək üçün FİN istifadə olunur.

Bu gün fərdi identifikasiya nömrəsi Azərbaycan Respublikasının vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında qanunvericilikdə nəzərdə tutulmuş məlumatlar Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinə daxil edilərkən, qanunvericiliklə müəyyən olunmuş qaydada avtomatlaşdırılmış rejimdə verilir.

**Sual:** ***Hazırda əhalinin dövlət reyestrinin formalaşması ilə bağlı işlər nə yerdədir?***

**Operator:** Ədliyyə Nazirliyi tərəfindən yaşından asılı olmayaraq hər bir vətəndaşımızı əhatə edəcək əhalinin dövlət reyestrinin formalaşdırılması üçün kifayət qədər böyük işlər görülüb. Bu istiqamətdə mən İAMAS-ın əhəmiyyətli rolunu xüsusən qeyd etmək istərdim. Çünki köhnə sovet pasportları yeni milli şəxsiyyət vəsiqələri ilə əvəz olunmağa başlarkən böyük bir informasiya sistemi qurulmuşdu ki, 16 yaşdan yuxarı vətəndaşların hər birinə bu FİN-lərin verilməsi artıq öz həllini tapmışdı. Əhalinin dövlət reyestri formalaşmağa başladıqda bu fakt nəzərə alındı və artıq verilmiş FİN-lər əsas olaraq qəbul edildi. Bu proses çox yorucu olsa da həyata keçirilmə mexanizmi var idi, yəni pasportunu dəyişməli olan hər bir şəxs mütləq qaydada DİN pasport stollara müraciət edirdi ki, vətəndaşın məlumatlarının yenidən işlənməsi və yeni şəxsiyyət vəsiqəsinin çapı mütləq qaydada unikal FİN və seriya nömrələrinin verilməsi ilə həllini tapırdı. Çünki pasportlar fiziki olaraq yenisi ilə əvəz edilirdi.

**Sual:** ***Bəs pasportu olmayan, 16 yaşdan aşağı olanlarla bağlı vəziyyət necə idi?***

**Operator:** yaşdan aşağı vətəndaşlara FİN-lərin verilməsi isə daha fərqlidir. Burada artıq verilmiş və verilməkdə olan "Doğum haqda şəhadətnamə"lər informasiya sisteminə paralel işlənir, FİN verilməsi ilə şəhadətnamənin fiziki bağlılığı yoxdur. Bu gün artıq verilmiş şəhadətnamələrin Ədliyyə Nazirliyi tərəfindən böyük bir hissəsi elektronlaşdırılmışdır. Artıq bir sıra dövlət orqanları müvafiq veb servislər vasitəsilə uyğun informasiya sistemindən ilkin məlumatları əldə edə bilirlər.

Prezident İlham Əliyevin 2014-cü il 9 sentyabr tarixli fərmanı ilə "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" qanunun tətbiqi qüvvəyə minib. Şəhadətnamələrin İD kartlarla əvəz olunması istiqamətində işlər aparılır. FİN ilə şəhadətnamələrin verilməsi prosesi sinxronlaşdıqdan sonra isə daha operativlik əldə edilmiş olacaq.

**Sual:** ***Fərdi identifikasiya nömrələrinin tətbiqi Mərkəzi icra hakimiyyəti orqanlarının özlərinə tapşırılıb. Hansısa bir nəzarətedici quruma həvalə edilməyib. Belə olan halda burada pərakəndəlik, lənglik, məsuliyyətsizlik hallarına yol verilirmi?***

**Operator:** Həqiqətən də sərəncamlarında olan informasiya sistemlərində və ehtiyatlarında FİN-in tətbiqinin təmin edilməsi bilavasitə Mərkəzi icra hakimiyyəti orqanlarına tapşırılıb.

Lakin qeyd etdiyim kimi, RYTN MHM olaraq informasiya sistemlərində apardığımız monitorinqlər, elektron xidmətlərin portala qoşulması zamanı texniki tələblərə riayət edilməsinin yoxlanılması zamanı informasiya sistemlərinin FİN-ə uyğunluğuna xüsusi olaraq diqqət yetirilir.

"Elektron hökumət" portalının operatoru olaraq bir qurumun informasiya sistemlərindən və ehtiyatlarından digər qurumun portal vasitəsilə istifadə edə bilməsi və dövlət orqanlarının elektron xidmətlərinin portala qoşulmasını təmin etmək üçün zəruri tədbirlər həyata keçiririk.

**Sual:** ***Konkret bu məqsədlə hansı tədbirləri həyata keçirirsiniz ?***

**Operator:** 2013-cü ildən RYTN MHM dövlət informasiya sistemlərinin və fərdi məlumatlar informasiya sistemlərinin reyestrlərini formalaşdırmağa başlayıb. Bu gün artıq reyestrlərdə 230 dan artıq informasiya sistemləri haqda məlumat toplanıb. Əlimizdə müəyyən material toplandıqdan sonra 2014-cü ilin sentyabr ayında biz ilk dəfə olaraq dövlət orqanlarında dövlət reyestrinə daxil edilmiş informasiya sistemlərində fərdi məlumatların toplanması, işlənməsi və mühafizəsinin "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə, habelə məlumatların və onların işlənmə üsullarının informasiya sisteminin bəyan olunmuş məqsədlərinə uyğunluğunun yoxlanılması və monitorinqinin aparılmasına başladıq.

Az da olsa, bəzi qurumlar tərəfindən mülkiyyətçisi olduqları informasiya sistemlərinin qeydiyyata salınması üçün təşəbbüs göstərilməyib. Bu səbəbdən apardığımız monitorinqlər mövcud olan bütün informasiya sistemlərini tam əhatə etməyib. İnformasiya sistemləri mülkiyyətçilərinin hamısına sərəncamlarında olan informasiya ehtiyatlarının dövlət qeydiyyatına alınması üçün yazılı müraciət olunub.

Qeydiyyata alınmış informasiya sistemləri isə elektron hökumət portalında, reyestrlər və aktlar, dövlət reyestrləri bölməsində dərc olunub. İstənilən maraqlanan şəxslər buradan qeydiyyata alınmış informasiya sistemləri haqda məlumatlar əldə edə bilərlər.

**Sual:** ***Fərdi indentifikasiya nömrələrinin tətbiqində hansı problemlər var? Müxtəlif informasiya sistemlərinin FİN-ə uyğunlaşdırılması üçün hansı addımlar atılır?***

**Operator:** RYTN Məlumat Hesablama Mərkəzi tərəfindən mülkiyyətlərində olan informasiya sistemlərinin FİN-ə uyğunlaşdırılması, yaxud bu prosesin sürətləndirilməsi məqsədilə bir çox dövlət qurumlarına və özəl müəssisələrə əməli köməkliklər göstərilir.

Hazırda "Azərsu" ASC, Azəristiliktəchizat ASC, "Azəriqaz" İB, "Bakıelektrikşəbəkə" ASC-nin mülkiyyətində olan informasiya sistemlərində abunəçilərə dair fərdi məlumatların "Giriş-cıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat axtarış sistemindəki məlumatlarla üzləşdirilərək FİN-ə uyğunlaşdırılması istiqamətində müvafiq işlər aparılır.

Analoji proses Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin informasiya sistemi ilə də aparılır. Eyni zamanda mobil operatorların hər üçü ilə bu sahədə əməkdaşlıq edilir.

Bir daha qeyd etmək istərdim ki, həmişə bəyan etdiyimiz kimi, bu və digər sahələrdə istənilən təşkilatlarla təmənnasız olaraq əməkdaşlıq etməyə hazırıq.

**Sual:** ***Hazırda sərəncamın icrası ilə bağlı vəziyyət necədir, hansı işlər görülür? İndiyədək neçə qurumun informasiya sistemində fərdi identifikasiya nömrəsi tətbiq edilib. Bunlar hansı informasiya sistemləridir?***

**Operator:** Biz vaxtaşırı olaraq bülletendə FİN-ə uyğunlaşdırılmayan sistemlərin siyahısını dərc edirik. Xeyli dövlət qurumu artıq sistemlərini FİN-ə uyğunlaşdırıblar. Məsələn, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Gömrük Komitəsi, Səhiyyə Nazirliyi, Vergilər Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və s. təxminən 13 Mərkəzi icra orqanında informasiya sistemləri tam olaraq FİN-ə uyğunlaşdırılıb.

Amma elə qurumlar var ki, bu istiqamətdə işlər hələ başa çatdırılmayıb və hazırda bu sahədə işlər davam etdirilir.

**Sual:** ***Fərdi identifikasiya nömrələri müxtəlif informasiya sistemləri və ehtiyatları arasında səmərəli informasiya mübadiləsi üçün hansı imkanları yaradacaq? Bu nömrələrin tətbiqi vətəndaşa və dövlət qurumuna nə verəcək?***

Operator: Fərdi identifikasiya nömrəsi informasiya sistemlərində fərdin şəxsiyyətini müəyyən etməyə imkan verdiyindən, mövcud və yeni yaradılan elektron xidmətlər istifadəçilərin rahatlığını təmin edəcək. Müxtəlif informasiya sistemlərini əlaqələndirmək üçün, məlumatın bir mənbədən daxil edilməsinin təmin edilməsi öz həllini tapacaqdır. Belə ki, əvvəllər hər hansı bir qurumun e-xidmətlərindən istifadə edərkən, orada yalnız həmin qurumun mülkiyyətində olan informasiya sistemlərində mövcud olan məlumatlar sistem tərəfindən avtomatik doldurulurdu. Digər zəruri məlumatları istifadəçi ya əllə daxil edir, ya xidmətdən istifadə etdikdən sonra isə zəruri sənədləri müvafiq idarə və şöbələrə bilavasitə təqdim etməli idi ki, bununla da e-xidmət öz mahiyyətini itirirdi. Ən yaxşı halda isə, əlavə sənədləri skan edilmiş formada e-xidmətdən istifadə zamanı yükləmək olurdu. Bütün hallarda istifadəçi nəticə etibarilə problemlərlə və vaxt itkisi ilə qarşılaşırdı.




FİN-ə uyğunlaşdırılmış informasiya sistemləri portala inteqrasiya edildikdən sonra, artıq bu məsələlər öz həllini tapmış olacaq. İstifadəçinin fərdi məlumatları, mülkiyyətində olan daşınmaz əmlak, hərbi mükəlləfiyyətliliyi, təhsili, kommunal xidmət borcları və s. haqqında məlumatlar "Elektron hökumət" portalı vasitəsilə müvafiq dövlət orqanının mülkiyyətində olan informasiya sistemlərindən avtomatik şəkildə əldə olunaraq, ödənişli e-xidmətlərin təklif olunmasında öz əksini tapacaqdır.

**Sual:** ***Nə zaman tam inteqrasiya həyata keçiriləcək və bir qurum digər dövlət qurumlarının informasiya sistemlərindən tam istifadə edə biləcək ?***

**Operator:** Nazirlər Kabinetinin "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" 1 may 2014-cü il tarixli 118 nömrəli qərarı var.

Bu qərar inteqrasiya istiqamətində mühüm rol oynayan sənədlərdən biridir. Məhz bu qərarla "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının siyahısı müəyyən edilib. Bu qərar tam şəkildə icra olunduqdan sonra bir qurum digər qurumun informasiya sistemlərindən və ehtiyatlarından portal üzərindən istifadə edə biləcək və bu da e-xidmətlərin çeşidinin və keyfiyyətinin artmasına gətirib çıxaracaq.

www.e-gov.az

# Dövlət Reyestri “Elektron hökumət” portalının tərkib hissəsidir…

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2013-cü il tarixli 813 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektron hökumət” portalı haqqında Əsasnamə”yə əsasən dövlət informasiya ehtiyatlarının reyestri “Elektron hökumət” portalının texniki-texnoloji infrastrukturunun əsas komponentlərindən biri kimi müəyyən edilmişdir. Dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrləri “Elektron hökumət” portalının operatoru olaraq, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi (bundan sonra – operator) tərəfindən aparılır. Reyestrlərin formalaşdırılmasına 2012-ci ilin dekabr ayında başlanılmışdır və keçən dövr ərzində 79 dövlət informasiya ehtiyatı və 155 fərdi məlumatların informasiya sistemi reyestrlərdə dövlət qeydiyyatına alınmışdır.

Dövlət reyestrində qeydiyyata alınmış informasiya sistemlərində fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsinin "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə, habelə məlumatların və onların işlənmə üsullarının İS-lərinin bəyan olunmuş məqsədlərinə, İS-lərinin “İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin “Elektron hökumət” portalına qoşulması üçün Texniki Tələblər”ə uyğunluğunun yoxlanılması məqsədilə operator tərəfindən mütəmadi olaraq monitorinqlər keçirilir.

**Monitorinqlər zamanı əsasən aşağıdakı məsələlərə diqqət yetirilir:**

- *informasiya ehtiyatlarının FİN-ə uyğunluğu;*
- *fərdi məlumatların mühafizəsinin müəyyən olunmuş tələblərə uyğun təşkili;*
- *informasiya ehtiyatlarında məlumatlar bazasının strukturu ilə tanışlıq, bazalar arası relativlik prinsiplərinin yoxlanılması;*
- *fərdi məlumatların toplanılmasının və işlənilməsinin mülkiyyətçi və ya operator tərəfindən bəyan edilmiş məqsədlərə uyğunluğu;*
- *digər əlaqəli informasiya sistemləri ilə informasiya mübadiləsi üsulları və kateqoriyalarının monitorinqi;*
- *informasiya sistemlərinin və ehtiyatlarının portala qoşulması və onların tələblərə uyğunluğunun yoxlanılması;*
- *informasiya sisteminin və ehtiyatlarının “Elektron hökumət”portalı ilə əlaqəli olan komponentlərinin tələblərə uyğunluğu;*
- *informasiya sisteminin SOAP (SimpleObject Access Protocol) vasitəsilə sorğularla işləmə imkanı;*
- *dövlət orqanlarının informasiya sistemlərinin və ehtiyatlarının qarşılıqlı inteqrasiyasının təmin edilməsi məsələləri;*
- *dövlət orqanları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılma imkanlarının araşdırılması;*
- *qanunvericiliyə uyğun sair aidiyyəti məsələlərin monitorinqi.*

Monitorinqlərin əsas məqsədi həm də, informasiya ehtiyatlarının qanunvericiliklə müəyyən edilmiş şəkildə toplanılması, mühafizə edilməsi və digər dövlət qurumlarına “bir pəncərə” prinsipi əsasında ötürülməsinə nəzarət, texniki-proqram çatışmazlıqların müəyyən edilməsi və onların aradan qaldırması üçün təkliflərin və tələblərin hazırlanmasından ibarətdir.

Monitorinqlər tam başa çatdıqdan sonra digər dövlət qurumları tərəfindən bir sıra elektron xidmətlərin göstərilməsi üçün həmin quruma məxsus İS-lərinin “Elektron hökumət”portalına qoşulması, uyğun servislərin verilməsi eyni zamanda əksinə, həmin qurumun digər dövlət qurumlarının uyğun servislərinə qoşulması üçün konkret təkliflər hazırlanacaq.

# DİN-nin daha bir xidməti "Elektron hökumət" portalına inteqrasiya edildi

Daxili İşlər Nazirliyinin "Rüsum və cərimələrin ödənişi" e-xidməti "Elektron Hökumət" portalına inteqrasiya edildi. Müvafiq e-xidmət vasitəsilə rüsum və cərimələrin ödənişini heç yerə getmədən, vaxt itirmədən, onlayn həyata keçirə bilərsiniz. Nəzərinizə çatdırırıq ki, portal üzərindən nazirliyin 3 e-xidməti vətəndaşların istifadəsindədir. Buna baxmayaraq, yanvar ayının e-xidmətlərdən istifadə statistikasına əsasən, nazirlik ən çox müraciət olunan qurumlar arasında 6-cı pillədədir.

DİN-nin təqdim etdiyi sözügedən xidmətdən istifadə zamanı şəxsiyyət vəsiqəsinin seriyası/nömrəsi, VÖEN, sürücülük vəsiqəsinin seriyası/nömrəsi, sənədin nömrəsi, protokol seriyası/nömrəsi tələb olunur. Qeyd edək ki, "Rüsum və cərimələrin ödənişi" e-xidmətindən qeydiyyatdan keçmədən yararlanmaq mümkündür.

# Dövlət Gömrük Komitəsinin (DGK) yeni elektron xidməti "Elektron hökumət" portalına inteqrasiya edildi



Artıq DGK tərəfindən portala əlavə olunan "Gömrük ödənişləri" xidməti vasitəsilə gömrük ödənişlərini elektron qaydada aparmaq mümkündür. Gömrük ödənişlərini onlayn həyata keçirmək üçün autentifikasiya tələb olunmur. Xidmətdən faydalanmaq üçün, "Qeydiyyatsız xidmətlər" bölümündən Dövlət Gömrük Komitəsini seçmək kifayətdir.

Bildirək ki, DGK-nın "Elektron hökumət" portalı üzərindən göstərdiyi elektron xidmətlərin sayı 6-ya çatıb.

## Vətəndaşlar artıq Tibbi müayinə kartını elektron formada sifariş edə biləcəklər



**"Elektron hökumət" portalında daha bir yeni elektron xidmət vətəndaşların istifadəsinə verildi. Bu xidmət Səhiyyə Nazirliyi tərəfindən portala inteqrasiya edilən "Tibbi müayinə kartının onlayn sifarişi" elektron xidmətidir.**

Nazirlər Kabinetinin 12 iyun 2006-cı il tarixli 142 saylı qərarı ilə "Tibbi müayinə kartı sisteminin tətbiqi qaydaları" təsdiq edilib. Bununla əlaqədar Səhiyyə Nazirliyi tərəfindən Tibbi müayinə kartı sisteminin tətbiqinə başlanıb. Bu sistemin məqsədi müayinə prosesinin nəticələri üzrə vahid mərkəzləşdirilmiş və lokal məlumat bazasının yaradılmasıdır. Vətəndaşlar bu sistemdən yararlanmaq üçün müayinə kartını "Elektron hökumət" portalı vasitəsilə sifariş edə bilərlər.

Kartların üzərinə yerləşdirilmiş çipin tərkibində vətəndaşa aid şəxsi məlumatlarla yanaşı, onun ilkin və dövri tibbi müayinədən keçməsi barədə məlumatlar yerləşdirilir. Kartlarda mövcud müayinələr barədə məlumatlar müayinələrin keçirildiyi tibb müəssisələrində kompüterlərə qoşulmuş kart oxuyucular vasitəsilə oxuna və dəyişdirilə bilər. Qeyd edək ki, vətəndaşlar bu xidmətdən autentifikasiyadan keçmədən yararlana bilərlər.

Bununla, Səhiyyə Nazirliyi tərəfindən təqdim olunan e-xidmətlərin sayı 32 oldu.

## "Elektron Hökumət" portalı Rezidentura səviyyəsi üzrə imtahanda iştirak etmək istəyənlərə xidmət təklif edir

**Ali təhsilin Rezidentura pilləsinə daxil olmaq istəyənlər "Elektron Hökumət" portalına daxil olaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının təqdim etdiyi "Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər)) ərizələrinin onlayn qəbulu" elektron xidməti vasitəsilə qeydiyyatdan keçə bilərlər.**

Bunun üçün namizədlər "Elektron hökümət" portalında aidiyyatı xidmətə daxil olaraq şəxsiyyət vəsiqəsinin seriya/nömrəsi, FİN və TQDK-nın təqdim etdiyi "Virtual ödəmə kartı"nda göstərilən iş nömrəsi və şifrədən istifadə etməklə "Namizədin elektron ərizəsi"-ni doldurmalıdır. Qeyd edək ki, "Virtual ödəmə kartı" nı "Elektron hökumət" portalı vasitəsilə də əldə etmək olar.

Namizədlər "Namizədin elektron ərizəsi"ni offline şəkildə Azərbaycan Tibb Universiteti və TQDK-nın Naxçıvan, Gəncə, Şəki, Xaçmaz, Lənkəran, Şirvan, Göyçay və Ağcabədidədə yerləşən regional bölmələrində yaradılmış Sənəd Qəbulu Mərkəzlərində təsdiq etdirə bilərlər. Bununla yanaşı, RYTN-nin MHM-in Milli Sertifikat Xidmətləri Mərkəzinin Qeydiyyat Mərkəzlərində "elektron imza" sertifikatı əldə etmiş namizədlər həmin sertifikatdan istifadə etməklə vaxt itkisinə yol vermədən online rejimdə ərizələrini təsdiq edə bilərlər.

## Elektron hökumət portalının operatoru uşaq evinin sakinləri ilə görüş təşkil edib



**Cari ilin yanvar ayının 30-da "Elektron hökumət" portalının operatorunun təşkilatçılığı ilə Suraxanı rayonu 2 nömrəli Uşaq Evinin sakinləri ziyarət edilib. 2 fevral – Gənclər günü münasibətilə təşkil edilən tədbirin əsas məqsədi gələcəyimizin təminatı olan uşaqları təbrik etmək, həmçinin, "Elektron hökumət"də gənclər üçün yaradılmış imkanlar barədə onları məlumatlandırmaq olub.**

Uşaqlara ölkəmizdə informasiya texnologiyaları sahəsində yeniliklər, o cümlədən elektron xidmətlər, elektron imza, yeni nəsil şəxsiyyət vəsiqəsi barədə ətraflı məlumat verilib. Sevindirici hal kimi qeyd etmək lazımdır ki, uşaqlar xeyli kompüter biliklərinə malik olduqlarını göstəriblər. Verilən məlumatların gənclərin hafizəsində möhkəmləndirilməsi məqsədilə təşkil edilən sorğu-sual və müzakirələr iştirakçıların böyük marağına səbəb olub.

Sonda, 2 fevral – Gənclər günü münasibətilə bütün uşaqlara hədiyyələr verildi. Sual-cavab və müzakirələrdə fərqlənənlər xüsusi hədiyyələrlə mükafatlandırıldı.

"Elektron hökumət" quruculuğu çərçivəsində təşkil olunan belə tədbirlərin məramı hər bir Azərbaycan vətəndaşını e-xidmətlərdən istifadəyə təşviq edərək, ölkədə gedən rəqəmsallaşma prosesinin iştirakçısına çevirməkdir.

www.e-gov.az

# Azərbaycan Dövlət İqtisad Universitetində tələbələrlə "Elektron hökumət və gənclər" mövzusunda seminar keçirildi

"Elektron hökumət" portalının operatoru tərəfindən Azərbaycan Dövlət İqtisad Universitetinin "Heydər Əliyev" Mərkəzində tələbələr üçün "Elektron hökumət" mövzusunda seminar təşkil olundu. Seminarda MHM-nin rəsmiləri, Azərbaycan İnternet Forumunun rəhbəri mühazirəçi qismində çıxış ediblər. Məruzəçi Elektron hökumətin infrastrukturu, əsas komponentləri, e-xidmətlər, dövlət reyestrləri və açıq hökumət məlumatları haqda prezentasiya üzrə geniş məlumat verdi. Daha sonra "Elektron hökumət"in yaradılmasını zəruri edən amillərdən, onun hüquqi əsasından bəhs etdi, "Elektron hökumət"in infrastrukturu, "Elektron hökumət" portalı üzərindən təqdim olunan e-xidmətlər barədə ətraflı məlumat verildi. O, "Elektron hökumət" quruculuğunun ictimai mahiyyətini və üstünlüklərini açıqladı. Məruzəçi qeyd etdi ki, portal üzərindən təqdim olunan bir çox elektron xidmətlər məhz gənclər üçün nəzərdə tutulmuşdur. Vurğulandı ki, Azərbaycan gəncliyi gələcəyimizin təminatçılarıdır, biz onlara inanırıq və həyatlarının hər bir pilləsində onlara mümkün qədər dəstək olmağa çalışırıq.

Sonra, Sertifikat Xidmətləri Mərkəzinin rəsmisi öz çıxışında e-imzanın mahiyyəti və əhəmiyyəti, e-imza sertifikatlarının e-sənəd mübadiləsində rolundan bəhs etdi. O, MHM-nin Milli Sertifikat Xidməti Mərkəzi tərəfindən verilən e-imza sertifikatlarının iqtisadiyyatda tətbiq olunduğu sahələr və cari istifadə statistikası haqqında danışıldı. Məruzəçi yeni nəsil şəxsiyyət vəsiqələrinin mahiyyəti və əhəmiyyəti, eləcə də e-xidmətlərin və e-imzanın kütləviləşməsində yeni nəsil şəxsiyyət vəsiqələrinin mühüm rol oynayacağını xüsusilə vurğuladı.

Azərbaycan internet forumunun rəhbəri "Elektron hökumət"in əhəmiyyəti, gənclərin həyatında rolu, Açıq Hökumət Məlumatları, ölkədə son zaman aktual olan startup layihələrdən söz açdı. **O, operator tərəfindən "Startup Azərbaycan 2015" layihəsi çərçivəsində** elan olunmuş data.gov.az portalının Açıq Məlumatlarından istifadə etməklə "Bax, istifadə et və yarat" adlı mobil əlavələrin hazırlanması müsabiqəsi barədə seminar iştirakçılarını məlumatlandırdı.

Seminar tələbələrlə sual-cavab və müzakirələrlə davam etdi. Seminarda aktiv iştirak edən tələbələrə pul mükafatları, e-imza sertifikatları və digər hədiyyələr təqdim olundu. Həmçinin, seminar iştirakçılarına portaldan istifadə üçün kod/parollar verildi.

Qeyd edək ki, belə seminarların keçirilməsində məqsəd gənclərə "Elektron hökumət", elektron xidmətlər, elektron imza, e-sənəd və sair barədə ətraflı informasiya vermək və onlarda praktiki biliklərin aşılanmasıdır.

# "Elektron hökumət" üzrə növbəti təlim Xəzər Universitetinin Dünya Məktəbində keçirildi

2015-ci il üçün təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq 12 fevral tarixində "Elektron hökumət" portalının operatoru tərəfindən Xəzər Universitetinin Dünya Məktəbində "Elektron hökumət" üzrə növbəti təlim keçirildi. MHM-nin mütəxəssisləri gələcəyimiz olan yeniyetmə və gənclərə ölkəmizdə İKT-nin inkişafı, "Elektron hökumət" quruculuğu, "Elektron hökumət" portalı, elektron xidmətlər, elektron imza, elektron sənəd barədə ətraflı məlumat verdilər. Şagirdlərə gündəlik həyatda elektronlaşmanın rolu və əhəmiyyəti izah edildi, "Elektron hökumət" portalı və e-imza saytı (www.e-imza.az) üzrə praktiki iş keçirildi.

Sonra şagirdlərin İKT və "Elektron hökumət" sahəsində biliklərinin yoxlanılması məqsədilə sorğu-sual təşkil olundu. Sorğu-sual əsnasında şagirdlərin əksəriyyətinin İKT sahəsində və "Elektron hökumət" portalı haqda xeyli biliklərə malik olduqları məlum oldu. Həmçinin, şagirdlərin rəqəmsallaşma prosesinə münasibətləri öyrənildi.

Sorğu-sualda aktiv iştirak edən şagirdlərə Təltifnamə və xüsusi hədiyyələr verildi. Tədbirin sonunda "Elektron hökumət" portalına giriş əldə etmək istəyən müəllimlərə və 11-ci sinif şagirdlərinə kod/parol paylanıldı.

Nəzərinizə çatdırırıq ki, "Elektron hökumət" üzrə keçirilən belə təlimlərin məqsədi kütləvi proses olan elektronlaşmanın ictimai mahiyyətini, üstünlüklərini və sosial-iqtisadi təsirini cəmiyyətə çatdırmaq, həmçinin Elektron hökumət portalının bu prosesdə əvəzedilməz rolunu işıqlandırmaqdır.

# Sosial şəbəkələrdə "Elektron hökumət" portalının fəaliyyəti genişlənib

"Elektron hökumət" portalı ilə bağlı bütün yeniliklər sosial şəbəkələr vasitəsi ilə operativ olaraq istifadəçilərə çatdırılır. "Elektron hökumət" portalı Facebook", "Twitter" sosial şəbəkələrində, eləcə də "YouTube" video xidmətində portalın səhifələri fəaliyyət göstərir.

Hazırda portalın "Facebook" sosial şəbəkəsində istifadəçilərin sayı 145,5 mini ötüb.

Portalın "Twitter" auditoriyası isə 335 nəfər təşkil edir. İndiyədək 2 minə yaxın tvit paylaşılıb.

"YouTube" videokanalına 168 nəfər abunə olub. Videokanalda "Elektron hökumət"ə dair 65 videomaterial yerləşdirilib.

Bu statistik göstəricilərdən məlum olduğu kimi, ən çox aktivlik "Facebook" səhifəsində müşahidə olunur.

Qeyd edək ki, portalın "Facebook", "Twitter" və




"YouTube" səhifələri ölkəmizdə "Elektron hökumət"in formalaşması istiqamətində görülən və nəzərdə tutulan işlər, layihələr haqda vətəndaşları maarifləndirmək, dövlət strukturlarının göstərdiyi elektron xidmətlərin hər bir vətəndaş üçün açıq olaraq portalda yerləşdirilməsini işıqlandırmaq, eyni zamanda ölkəmizdə informasiya cəmiyyəti quruculuğunda aparılan işləri təhlil və müzakirə etmək, istifadəçiləri keyfiyyətli elektron xidmətlərlə təmin etmək məqsədilə yaradılıb.

# Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Elektron hökumət" üzrə növbəti dəfə ixtisasartırma kursları təşkil olunub

Portalın operatorunun nümayəndələri 16-20 fevral tarixlərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında keçirilən "Elektron hökumət" üzrə ixtisasartırma kurslarında mühaziraçi qismində çıxış ediblər.

RYTN və Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının təşəbbüsü ilə keçirilən kurslarda bir sıra İcra Hakimiyyəti nümayəndələri iştirak ediblər. İştirakçılara "Elektron hökumət"in infrastrukturu, onun əsas komponentləri, Dövlət Reyestrləri, elektron xidmətlər, elektron imza və elektron sənəd barədə əvvəlcədən müəyyənləşdirilmiş proqram və prezentasiyalar əsasında təlimlər keçirilib.

Portalın hazırda təqdim etdiyi və planlaşdırılan elektron arayışlar, həmçinin portalda yeni yaradılmış funksionallıqlar barədə iştirakçılara ətraflı məlumat verilib. Təlimlərdə iştirakçılara nəzəri biliklər verilməklə yanaşı, həm də ən çox istifadə olunan elektron xidmətlər əyani olaraq nümayiş etdirilib. Təlimlər qarşılıqlı müzakirələr və diskussiya şəklində davam etmişdir və iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

Kursların əsas məqsədi regionlar üzrə İcra Hakimiyyəti nümayəndələrinə "Elektron hökumət", elektron xidmətlər, elektron imza və sair barədə ətraflı informasiya vermək və praktiki biliklərin aşılanmasıdır.

Sonda hər bir kurs iştirakçısına vətəndaşlar üçün nəzərdə tutulmuş elektron imza sertifikatları təqdim edilib.

# Dünyanın ən yaxşı "Elektron hökumət" portalları

"Asiya-Sakit okean" onlayn kommunikasiya mərkəzi "FutureGov" dünya üzrə ən yaxşı dizayna malik olan 8 milli e-hökumət portalı barədə "Design Secrets of the World`s Best e-Government Web Sites" (Dünyanın ən yaxşı E-hökumət portallarının dizayn sirləri) kitabında ətraflı məlumat verərək həmin portalların ən fərqli və üstün təcrübələrini nümunə göstərib. Bu veb-portallar praktik, sadə, sürətli və istifadəçinin asanlıqla adaptasiya olması üzrə dünyada ən yaxşı portallardan sayılırlar. Əla dizayn, vətəndaşların istifadəsi üçün mümkün qədər sadə, müvafiq informasiya və xidmətlərin əldə olunması üçün əlverişli interfeys bütün portallar üçün əsas prinsiplərdir.

"FutureGov" onlayn kommunikasiya mərkəzinin tədqiqatlarına əsasən aşağıda qeyd olunan 8 portal bu baxımdan fərqlənir:

* **Böyük Britaniyanın** gov.uk (https://www.gov.uk/) portalı sadəliyinə, məzmun aydınlığına, axtarış mexanizminin optimal və sürətliyinə, təşəbbüskar komandanın çevikliyinə, yüzlərlə hökumət veb-saytlarını bir məkanda birləşdirdiyinə görə yüksək qiymətləndirilir.

* **Avstraliyada** çoxsaylı istifadəçilərin rəylərinin öyrənilərək tətbiq olunması Australia.gov.au (http://www.australia.gov.au/) portalının inkişafına xeyli təsir etmişdir. Bu da BMT-in 2014 E-hökumət reytinqində portalın ikinci ən yüksək pilləni tutmasına kömək etmişdir.

* **Honh Kong-un** Gov.HK (http://www.gov.hk/) portalı canlı və maraqlıdır, rəsmi hökumət veb-saytlarından sadəliyi ilə fərqlənir. Bu portal xüsusən də, 10 dildə - Kanton, Mandarin, İngilis, İndoneziya, Nepal, Taqaloq, Pakistan, Tay və Vyetnam dillərində fəaliyyət göstərməsi ilə digər dünya portallarından seçilir.

* **Yeni Zelandiyanın** yenidən dizayn olunmuş Govt.nz (https://www.govt.nz/) portalı rəsmi hökumət portallarına bənzəmir. Portal böyük şriftlə dərc olunur və heç bir rəsmi işarələrdən istifadə olunmadığından, sadəliyi ilə seçilir. Bu portalda e-xidmətlərin istifadəçilər tərəfindən asanlıqla test edilməsi və "Əks Əlaqə" xidməti vasitəsilə dizaynerlərlə əlaqə saxlanılması mümkündür.

* **Sinqapurun** ecitizen.gov.sg portalı (http://www.ecitizen.gov.sg/) sadə axtarış sisteminə bənzəyir.

Lakin sonradan bu portala digər funksionallıqlar da əlavə olundu. Test müddətində məlum oldu ki, bir çox istifadəçilər zəruri informasiyaların axtarışı üçün bu sadə bölmələrdən istifadəyə daha çox üstünlük verir. Onun məşhur "Əks Əlaqə" xidməti vətəndaşlarla asan ünsiyyəti təmin edir.

* **Norway.no** (http://www.norge.no/) səliqəli və sadə şlüzü ilə fərqlənir. Bu portalda əsas başlıqlar solda yerləşir, məşhur axtarış sistemi vətəndaşlara bələdiyyələr üzrə seçim etmək imkanı verir. Bu funksiyalar və SMS mətni ilə vətəndaşları saytdan qeydiyyatdan keçmək dəvəti portalı populyar edən əsas göstəricidir.

* **BMT-in** e-Hökumət Reytinqinin çoxillik lideri Cənubi Koreya e-hökumət portalı (korea.go.kr) ikonların istifadəsinə görə məşhurdur. Portalın interfeysi yüksək istifadə rahatlığı standartlarına tam şəkildə cavab verir.

* **USA.gov** (http://www.usa.gov/) portalı sosial şəbəkələrin sinxronizasiyası, xəbərlərin e-poçta göndərmə xidməti, ştatlar üzrə rəsmi veb-saytları bir məkanda toplanılması və digər funksionallıqlarına görə digər portallardan üstündür.

Bu portalların üstün və ortaq cəhətləri "FutureGov" onlayn kommunikasiya mərkəzinə "Elektron hökuməti" portallarının uğur qazanması üçün təməl prinsipləri müəyyən etməyə imkan verdi və həmin prinsiplərin bütün portallar tərəfindən tətbiq olunması tövsiyyə olunur:

*- Geniş, populyar və sürətli axtarış panelləri, hökumət saytları ilə istifadəçinin qarşılıqlı canlı əlaqəsi.*
*- Əla dizayn, sadəlik, ana səhifədə linklərin sayının əsaslı dərəcədə məhdudlaşdırılması.*
*- İstifadəçinin marağına uyğun olaraq xidmətlərin qruplaşdırılması.*
*- İstifadəçinin informasiyanı rahat tapa bilməsi üçün şəkillərdən yox, ikonlardan istifadə.*
*- Dizaynın mobil cihazlara tətbiqi üçün əlverişli olması.*
*- Portalın bir çox dillərə tərcümə edilməsi.*

Hesab edirik ki, bu prinsipləri reallaşdıran bütün "Elektron hökumət" portalları hər bir aspektdə uğur qazanacaqlar.

www.e-gov.az

## 01.02.2015 – 28.02.2015-ci il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 133324 |
| 2 | Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər) ərizələrinin onlayn qəbulu | TQDK | 100364 |
| 3 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 72165 |
| 4 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 60354 |
| 5 | Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi | TQDK | 56460 |
| 6 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 45819 |
| 7 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 35457 |
| 8 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 33407 |
| 9 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 24901 |
| 10 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 22226 |
| 11 | Portal üzərindən istifadəçi qeydiyyatı | Elektron Hökumət Portalı | 15814 |
| 12 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 11048 |
| 13 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 10877 |
| 14 | İş yerinə dair arayış | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 10592 |
| 15 | Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi | Elektron Hökumət Portalı | 10201 |
| 16 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 4488 |
| 17 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 4094 |
| 18 | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3870 |
| 19 | Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3761 |
| 20 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 3752 |

## 01.03.2015-ci il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 79 | 158 | 237 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 28.02.2015 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 17773 | 5226 | 7093 | 30092 |

## 2015-ci ilin fevral ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 8 | 206969 |
| 2 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 14 | 192393 |
| 3 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 45 | 185217 |
| 4 | Dövlət Sosial Müdafiə Fondu | 12 | 70441 |
| 5 | Elektron Hökumət Portalı | 7 | 28559 |
| 6 | Daxili İşlər Nazirliyi | 3 | 6988 |
| 7 | Dövlət Gömrük Komitəsi | 6 | 2399 |
| 8 | Təhsil Nazirliyi | 3 | 1473 |
| 9 | İqtisadiyyat və Sənaye Nazirliyi | 8 | 1422 |
| 10 | "AzərEnerji" ASC | 2 | 1387 |
| 11 | Mərkəzi Seçki Komissiyası | 7 | 1014 |
| 12 | Əmlak Məsələləri Dövlət Komitəsi | 4 | 955 |
| 13 | "Azərsu" ASC | 2 | 945 |
| 14 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 630 |
| 15 | Səhiyyə Nazirliyi | 11 | 549 |
| 16 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 13 | 493 |
| 17 | Milli Arxiv İdarəsi | 2 | 372 |
| 18 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 320 |
| 19 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 297 |
| 20 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 281 |
| 21 | Ədliyyə Nazirliyi | 2 | 220 |
| 22 | Dövlət Statistika Komitəsi | 4 | 208 |
| 23 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 184 |
| 24 | Vergilər Nazirliyi | 6 | 168 |
| 25 | Nəqliyyat Nazirliyi | 4 | 151 |
| 26 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 140 |
| 27 | Baş Prokurorluq | 1 | 74 |
| 28 | Kənd Təsərrüfatı Nazirliyi | 18 | 72 |
| 29 | Dövlət Sərhəd Xidməti | 3 | 70 |
| 30 | Energetika Nazirliyi | 6 | 68 |
| 31 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 66 |
| 32 | Xarici İşlər Nazirliyi | 1 | 64 |
| 33 | Fövqəladə Hallar Nazirliyi | 3 | 56 |
| 34 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 11 | 47 |
| 35 | Gənclər və İdman Nazirliyi | 4 | 46 |
| 36 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 45 |
| 37 | Dövlət Miqrasiya Xidməti | 1 | 40 |
| 38 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 12 | 38 |
| 39 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 29 |
| 40 | Dövlət Dəniz Administrasiyası | 9 | 28 |
| 41 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 27 |
| 42 | Müəllif Hüquqları Agentliyi | 3 | 17 |
| 43 | "Aqroliziq" Açıq Səhmdar Cəmiyyəti | 1 | 8 |
| | **CƏMİ** | **277** | **704970** |

www.e-gov.az

## "E-hökumət" portalında olan e-xidmətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş siyahı ilə

# MÜQAYİSƏLİ TƏHLİLİ

*01.03.2015*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 26 | 1 | 3 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 18 | 12 | 18 | 16 | 14 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 8 | 11 | 5 |
| 7 | Vergilər Nazirliyi | 60 | 58 | 59 | 58 | 58 |
| 8 | Energetika Nazirliyi | 8 | 5 | 5 | 5 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 15 | 10 | 12 | 15 | 14 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 15 | 14 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 18 | 18 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 5 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 4 | 4 | 12 | 5 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 32 | 32 | 31 | 31 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 15 | 34 | 26 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 6 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 27 | 25 | 31 | 31 | 26 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 14 | 14 | 14 | 14 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 11 | 10 | 10 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 4 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 4 | 4 | 5 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 38 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 1 | 8 | 2 | 2 |
| 39 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 40 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 41 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 42 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **452** | **333** | **395** | **463** | **401** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | |
|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | 2 | 2 | |
| 2 | "Azərsu" ASC" | 2 | 3 | |
| 3 | Azərenerji" ASC | 2 | 3 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | 6 | 9 | |
| 5 | Baş Prokurorluq | 1 | 1 | |
| 6 | "Elektron hökumət" portalı | 2 | | |
| | **CƏMİ:** | **15** | **18** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **YEKUN** | **452** | **333** | **410** | **481** | **401** |

# “Elektron hökumət” portalına daxil olanların sayı 1 329 130 nəfərə çatdı




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) “Elektron hökumət” portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2015-ci ilin fevral ayının 28-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 4,405,403 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 1,329,130 nəfər olub. Belə ki, 1,329,130 nəfər ümumən 4,405,403 dəfə portala baxıb və 7,949,657 dəfə elektron xidmətlərə müraciət ediblər. Həmin şəxslər 17,439,768 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 6 dəqiqə 22 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 30.2%-ni yeni istifadəçilər, 69.8%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Fevral ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 469,628 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 163,641 nəfər olub. Həmin şəxslər 1,596,718 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 704,970 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 05 saniyə təşkil edib. Fevral ayı ərzində portala müraciət edənlərin 26.7%-ni yeni istifadəçilər, 73.3%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 191,163-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 410 olub.




© 2015 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Nəsimi r-nu, Dilarə Əliyeva küç., 185
Tel.: 157; Email: office@rabita.az